# Vətən müharibəsinin daha bir qəhrəmanı: "Yaralananda bircə ona təəssüfləndim ki..." - minaya düşən zabitimiz

***Azərbaycan tarixinin ən parlaq səhifələrindən birinə çevrilən 44 günlük Vətən müharibəsində qazandığımız Böyük Qələbənin əsas memarı, Ali Baş Komandanın da dəfələrlə vurğuladığı kimi, şanlı Ordumuzdur, onun cəsur ürəkli əsgərləri və zabitləridir.***

Bizə bu zəfər sevincini yaşadanlara, bayrağımızı qanları, canları bahasına işğaldan azad edilən torpaqlarımızda ucaldanlara ehtiram hər birimizin borcudur.

Sizə təqdim etdiyimiz bu yazıda belə qəhrəman vətən övladlarından biri - Yusifov Abbas Mədət oğlu ilə tanış olacaqsınız.

24 yaşlı Abbas Qazax rayonunun İncə Dərəsində, Aslanbəyli kəndində dünyaya göz açıb. 2011-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olan Abbas üç il sonra buranı bitirib.

Hərbi təhsilini 2014-cü ildən Ali Hərbi Məktəbdə davam etdirib.

Buranı 2018-ci ildə başa vuran A.Yusifov elə həmin ildən etibarən Azərbaycan Ordusu sıralarında, Tərtər rayonu istiqamətində hərbi xidmətdədir.

Azmarka.az-ın əməkdaşı ilə söhbətində qəhrəman zabitimiz Vətən müharibəsinin başlanmasını təkcə hərbçi kimi yox, ümumiyyətlə, hər bir azərbaycanlı kimi fərəhlə qarşıladığını deyib: "İçimizdəki neçə illik inti-



qam hissini döyüş meydanında nümayiş etdirmək, şəhidlərimizin qanını yerdə qoymamaq, torpaqlarımızın işğalına son vermək üçün fürsət yetişdiyini görmək qürurverici idi. Odur ki, cəsarətlə, əzmlə irəli atıldıq və çox şükür ki, istəyimizə çatdıq".

Abbasın sözlərinə görə, 44 günlük Vətən savaşında onun şanlı döyüş yolu sentyabrın 27-də Suqovuşan (Madagiz) istiqamətindən başlayıb: "İki gün sonra isə Talış kəndi uğrunda döyüşlərdə iştirak edirdim. Bilirsiz ki, hər iki ərazini ordumuz çox qısa vaxtda düşməndən təmizlədi. Savaşın ilk günlərindəncə əsgər və zabitlərimizin necə mərdliklə, ölüm qorxusu nədi bilmədən vuruşduğunu sözlə ifadə etmək mümkünsüzdür. Bunu gərək öz gözlərinlə görəydin. Elə bu şücaət də qısa zamanda işğaldakı vətən torpaqlarının bir-birinin ardınca azad edilməsinə gətirib çıxardı".

Qəhrəman zabitimiz necə yaralandığına da aydınlıq gətirib: "İrəlidəki qüvvələrimizə yardım üçün tələsirdik. Mən öndə, yol aça-aça irəliləyirdim. Bir qədər getdikdən sonra mina gördüm, arxamca gələn əsgərlərimə dayanmaq əmri verdim. O anda dabanımı yerə basınca minaya düşdüm".

Abbas deyir ki, yaralanması ona çox pis təsir edib: "Erkən yaralanmağıma hədsiz üzülmüşdüm. Bircə ona təəssüflənirdim ki, döyüşə davam edə bilməyəcəm. Çünki daha çox irəliləmək, daha çox torpağımızın azad olunmasında iştirak eləmək istəyirdim. İnanın, hər bir əsgər, zabit də yaralandıqda mənim keçirdiyim hissləri keçirib. Axı hamımızın beynində ancaq bir fikir vardı - yalnız döyüş, yalnız intiqam, vəssalam!"

Qəhrəman zabitimiz deyir ki, döyüşlər zamanı digər istiqamətlərdən gələn qələbə xəbərləri onların savaş əhval-ruhiyyəsini daha da yüksəldir, zəfər əzmini artırırdı: "Biləndə, eşidəndə ki, bütün cəbhə boyu ordumuz uğurla irəliləyir, həmin anlarda bir yandan daha da qürurlanır, o biri yandan da daha şövqlə, əzmlə irəli atılırdıq. Bir çox döyüş yoldaşlarımızın gözlərimiz qarşısında şəhid olmasına, əlbəttə, çox üzülür, kədərlənirdik. Lakin eyni zamanda başa düşürdük ki, bu müharibədir və müharibədə itkisiz qələbə ola bilməz. Əbəs yerə deyilməyib ki, "Torpaq - uğrunda ölən varsa Vətəndir!" Alllah bütün şəhidlərimizə rəhmət eləsin. Hər birinin xatirəsinə dərin ehtiramımı bildirirəm. Əminəm ki, onların ruhu şaddır. Çünki biz tarixi zəfər qazandıq və Azərbaycanımızın 30 ilə yaxındır qanayan yarasını sarıdıq, sağaltdıq".

Abbası qürurlandıran başqa bir məqam isə odur ki, döyüşlərdə iştirak etdiyi müddətcə düşmənin çox sayda canlı qüvvəsini məhv etməyə nail olub.

Zabitimiz deyir ki, Böyük Zəfər həm Ordumuzun Vətən müharibəsinə hərtərəfli şəkildə yüksək hazırlığının, həm də bir xalq kimi ülvi ideal uğrunda sıx birləşməyimizin nəticəsidir: "Bu elə bir uca idealdır ki, onun uğrunda qazi olmaq da, şəhid olmaq da böyük şərəfdir. İndi fəxrlə "Qarabağ Azərbaycandır!" deyə biliriksə, bundan böyük hansı xoşbəxtlik, hansı sevinc ola bilər?!".